# SÜLH DAHİSİ

**(İmam Həsənin sülhü haqqında traktat)**

**NAMİQ BABAXANOV**

“Beş kimsənin sorağında” gəlib İmam Həsən Müctəbaya çatdıq. Biz bu yazılarımızda Ali Əbanın bu beş nəfərinin həyatına bir hissəsinə işarə edirik, əlbəttə bu nurani ömrlərin ən mühüm hadisəsini qısa araşdırıb, təhlil edirik. Çox maraqlı burasıdır ki, bu şəxsiyyətlərin həyatlarının ən mühüm hadisələri, ömürlərinin sonuna yaxın baş verir və ya həyatlarının əsas son mühüm hadisəsi olur. Bizim yazıların başlığı da həmin qeyd olunan mövzuya uyğun müəyyən edilir. İmam Həsən Müctəbanın qısa amma çox mənalı və zəngin həyatının fikrimizcə ən mühüm hissəsi onun tarixi sülh anlaşması olub. Elə bilirik ki, tarixdə bu qədər uğurlu, məğlubiyyəti qələbəyə çatdıran bir sülh olmayıb. İslam atrixində digər sülhlərdə var, onlardan ən mühüm olanı İslam Peyğəmbərinin Məkkə müşrikləri ilə olan Hüdeybiyyə sülhüdür. Əlbəttə o sülh də çox önəmli və İslam dininə həyat verən bir müqavilə idi. Amm İmam Həsənin sülhü ondan daha əhəmiyyətli oldu. Çünki Hüdeybiyyə sülhü olmasaydı başqa çarələr tapılardı, amma İmam Həsənlə Müaviynin sülhü zamanında İslamı qorumaq üçün başqa çarə yox idi, Allah yolunu qorumağın yeganə vasitəsi bu sülh idi. Dünya tarixində də böyük sülhpərvər insanlar olub, Mahatma Qandi, Nelson Mandela və sairlərini misal çəkə bilərik. Amma fikrimizcə bu dünyanın ən vacib sülhünü bağlayan və bununla da bəşəriyyətin səadət yolunun aradan getməsinin qarşısını alan İmam Həsən Müctəba “sülh dahisi” ləqəbinə sahib olmağa ən layiq birisidir.Biz də bu sülh dahisinin haqqında tarixi faktları ortaya qoyub, söhbət açacağıq.

**İmam Həsənlə Müaviyənin sülh müqaviləsi**

əsas mövzumuz olduğu üçün ilk olaraq o müqaviləni tam mətniylə qeyd edək, çünki bütün təhlillərimiz burdan olacaq. Bu sülhün ən məşhur və hamı tərəfindən qəbul olan bu variantıdır, beləliklə, aşağıdakı maddələrlə İmam Həsənlə Müaviyə arasında sülh bağlandı:

Birinci maddə; Həsən ibn Əli xilafəti Müaviyəyə o şərtlə təhvil verir ki, Müaviyə hökuməti Qurani Kərim və Məhəmməd peyğəmbərin sünnəsi əsasında idarə etməlidir. (Bu o zaman hər xəlifədən tələb olunan şərt idi.)

İkinci maddə; Müaviyədən sonra (yəni öləndən sonra) xilafət Həsən ibn Əlinin ixtiyarına keçməlidir. Əgər onun (Həsən ibn Əlinin) başına bir iş gələrsə (dünyadan köçərsə), Hüseyn ibn Əli xilafət başına gələcək. Həmçinin, Müaviyənin özündən sonra canişin təyin etmə haqqı yoxdur. (Yəni xilafətə rəhbərlik müvəqqəti olaraq və şərtlə Müaviyənin ömrünün sonuna qədər ona həvalə edilir.)

Üçüncü maddə; Əmirəl-möminin Əliyə namaz qılarkən hörmətsizlik edib onu lənətlənməyin və söyməyin qarşısı alınmalıdır və o yaxşılıqla, xoş sözlərlə yad edilməlidir. (O zamana qədər Müaviyənin hakim olduğu Şam, Fələstin və

Misirdə İmam Əlini lənətləmək və söymək rəsmi qaydada Müaviyənin əmriylə həyata keçirilirdi.)
Dördüncü maddə; Kufə beytül-malında (xilafətin xəzinəsində) olan beş milyon dirhəm pul Müaviyənin ixtiyarına verilməkdən istisna olunur və həmin məbləğin xərclənməsinin səlahiyyəti Həsən ibn Əlidə qalır. Həmçinin, Müaviyə beytül-maldan ayrılan payda Bəni Haşimi (Peyğəmbər nəslini) öz nəsli Bəni Üməyyədən üstün tutmalıdır. (O zamana qədər Bəni Üməyyəyə xüsusi imtiyazlar verilirdi və halanki o imtiyazlar Peyğəmbər nəslinə aid idi. Yəni burda ədalətin bərpa olunması önəm daşıyırdı.) Eləcə də Müaviyə "Darabgərd" şəhərinin xəracının bir milyon dirhəmini Əli ibn Əbu Talibin rəhbərliyi altında Cəməl və Süffeyn döyüşlərində şəhid olanların ailələri arasında bölüşdürməlidir.
Beşinci maddə; Müaviyə bu sülhlə bütün əhaliyə istər Şam, istər İraq, istərsə də Hicaz və sair əhalisinə hər hansı millətdən olursa olsun bir daha təqib etməməsi və əzab-əziyyət verməməsi barədə zəmanət verir. Onları Müaviyənin hökumətinə qarşı keçmişdəki müxalif fəaliyyətlərinə görə axtarışa  xüsusilə İraq əhalisini keçmiş kin-kudurətə görə təzyiqlərə məruz qoyulmamalı, əziyyət verilməməlidir. Bundan əlavə, Müaviyə Əli ibn Əbu Talibin tərəfdarlarını harda olursa olsunlar amanda saxlamalıdır. Əli ibn Əbu Talibin tərəfdarlarının canı və malının hörməti qorunmalıdır. Onlar əsla təqibə məruz qalmamalı və onlara zərrə qədər də narahatçılıq yetişməməlidir. Hər kəsin haqqı onun özünə çatmalıdır. Əli ibn Əbu Talibin tərəfdarlarının malı onların özlərində qalmalıdır. Həmçinin, Həsən ibn Əli, qardaşı Hüseyn ibn Əli və eləcə də, Peyğəmbərin  ailəsindən olan hər hansı bir şəxs üçün Müaviyə tərəfindən heç bir xətər icad olmamalı, heç bir yerdə onlar üçün qorxu yaranmamalıdır.
Təbəri, Yəqubi öz tarix kitablarında, Şeyx Müfidin "Əl-İrşad",  Bin Şəhr Aşubun, "Mənaqib" əsərlərində və digər kitablarda bu sülh müqaviləsi yazılıb.
Bu müqavilənin sonunda Müaviyə maddələrin hamısına əməl edəcəyinə söz verərək Allahı bu işdə şahid tutur və bütün Şam əyan-əşrafı buna şəhadət verirlər. Bu müqavilə 41-ci hicri ili rəbiül-əvvəl ayının ya 24 də (bəzi tarixlərə görə 26 da) imzalanır. İmam Həsən altı ay üç gün xilafətdən sonra xəlifəliyi müvəqqəti olaraq Müaviyəyə təhvil verir. Bununla da Müaviyənin başqa sözlə desək əməvilərin xilafət dönəmi başlayır.

**Peyğəmbərin İmam Həsən haqqında buyurduğu**

Məşhur hədisi söyləməklə əsl söhbətimizə artıq başlaya bilərik. Bir gün Peyğəmbər kiçik yaşlı nəvəsi Həsən bin Əlini minbərdə qucağında oturdub belə söyləyir: "Bu nəvəm mənim sevimlimdir. Allah onun vasitəsiylə iki müsəlman toplum apasında sülh bərqərar edəcək." Bu sünni və şiə mənbə kitablarında qeyd olunmuş məşhur

bir hədisdir. Bu hədis Hz. Muhəmməd peyğəmbərin möcüzələrindən sayılır o bu kəlamı ilə qeybdən xəbər verir. Sülh müqaviləsi bağlanandan sonra insanlar Peyğəmbərin bu sözünün də həyata keçdiyini gördülər. İmam Həsən artıq neçə ildir ki, müharibə şəraitində olan Şam müsəlmanları ilə Kufə müsəlmanları arasında barış və sülhə səbəb oldu. Bu sülh məsələsi Müaviyəyə aid deyil, çünki o bu sülhü ilk zamanlarından pozdu, amma İmam Həsən sonadək sülhə sadiq qaldı, qan tökülməsinə fürsət vermədi. Bu sülhdən sonra iyirmi il şamlılarla kufəlilər savaşmadı. Bu hədis əksər mənbə kitablarında gəlib, məsələn , Əhməd bin Hənbəlin "Müsnəd" kitabı, c. 5 səh. 99. Əlbəttə İmam Həsən və İmam Hüseyn haqqında Peyğəmbərdən çoxlu hədislər var ki, onların fəzilətinə aid edilir. Mütavatir, hamı tərəfindən qəbul olunan və həqiqətinə şəkk olunmayan hədislərdən olan "Həsən və Hüseyn cənnət gənclərinin ağasıdır" kəlamı da Rəsuli Əkrəmə aiddir. Başqa bir hədisdə Hz. Muhəmməd "Həsən və Hüseyn hər ikisi imamdır, istər sülh edələr, istərsə qiyam" hədisi də əslində gələcəkdəki hadisələrdən xəbər verir. (Şeyx Müfid, "Əl-İrşad"). Amma yuxarıda qeyd etdiyimiz hədis bir başa mövzumuza aiddir.

**Hakəmiyyət**

İmam Əlinin zamanında olsa da, təsiri İmam Həsənin xilafəti və onun sülhünə qədər gəlib çatdı, odur ki, bu barədə mütləq burda danışacayıq. Süffeyn müharibəsinin sonu kimi görünən bu İslam tarixinin qara ləkəsi olan hadisə sonradan baş verən əhvalatlara yol açdı. Biz burda hadisələri o dövrdən araşdırmayacayıq. Çünki elə "Beş kimsənin sorağında" yazılarımızın "Səbr şahı" adlanan İmam Əliyə aid bölümündə Hakəmiyyətdən İmam Əlinin şəhadətinə qədər olan zamana aiddir. Amma bunu indidən bilək ki, hadisələrin sonrakı cərəyanı məhz Hakəmiyyətə aiddir. İmam Həsənin sülhünə qədər hakəmiyyət ciddi rol oynadı. Əlbəttə həmin təsirlər də məhz İmam Həsənin sülhü ilə bitdi. Əlbəttə qarşıda ümumiyyətlə hansı hadisələrin bu sülhlə sona yetdiyini də deyəcəyik.

**İmam Həsən raşidi xəlifələrinin beşincisi**

olsa da, bu xəlifələrin sayı daha çox dörd nəfərlə tanınır, əvvəldə bundan danışaq. Ümid edirik ki, bu, İmam Həsənin xilafətinin çox qısa zamanlı olması ilə əlaqəlidir, yəni burda başqa qərəz olmayıb. Amma əsl budur ki, raşidi xəlifələrinin sonuncusu altı ay üç gün xilafətdə olan İmam Həsən bin Əlidir. Məşhur tarixə görə İmam Həsən atası Əmirul-muminin İmam Əlinin şəhadətindən sonra, daha dəqiq hicri 40-cı il Ramazan ayının 21-ci günü sübh o Həzrət dünyadan köçəndən və onu gizli dəfn edəndən sonra Kufəyə qayıtmış, məsciddə minbərə çıxmış, atasının

şəhadətə yetdiyini, artıq dəfn olunduğunu və Allahın göstərişi, Peyğəmbərin təyininə əsasən özünün xəlifə olduğunu bəyan etmişdir. Əbdullah bin Əbbas ordaca ayağa qalxmış, ilk beyəti etmiş və insanları beyətə dəvət etmişdir. Kufə camaatının beyətindən sonra xüilafətin üsul və qaydalarına uyğun olaraq İraq, Hicaz, Yəmən, Bəhreyn, İran, Azərbaycan  və başqa ərazilərə məktublar yazılmış, valilər təyin edilmiş və zəruri olan digər məsələlər həyata keçmişdir. Hətta Müaviyənin rəhbərliyi altında olan Şam, Fələstin və Misir ilə bağlı da eyni qaydada fəaliyyətlər icra olunmuşdur. Əlbəttə Fələstin o zaman Şamın tabeliyində olub, Misir isə Şam kimi valilik olsa da, Həkəmiyyətdən sonra Müaviyənin rəhbərliyi altında idi. Müaviyənin ixtiyarında olan ərazilərdən başqa bütün xilafət İmam Həsənin xəlifəliyini qəbul etmişdir. İmam Həsən altı ay üç gün – hicri 41-ci il rəbiül-əvvəl ayının 24 nə - sülh müqaviləsi bağlanana qədər İslam xəlifəsi olmuşdur.

**Maneəsiz xəlifəlik məqamına yetişən tək raşidi xəlifəsi**

İmam Həsən olmuşdur. Nəzərə alsaq ki, Peyğəmbərdən sonra camaat tərəfindən seçilən birinci xəlifə bu yolda ciddi müxalifət və etirazlarla qarşılamışdı. Çünki cəmi 76 gün əvvəl Qədir-Xumda Peyğəmbər Hz. Əlini öz yerinə təyin etmişdi və bu işin ilahi göstərişlə, vəhylə olduğuna göstərirdi. Eyni zamanda nəzərə alsaq ki, ikinci xəlifə seçki ilə deyil birinci xəlifə tərəfindən təyin olunmuşdu və o da çiddi narazılqılarla və suallar doğuran bir vəziyyətdəydi. Çünki əgər xəlifə təyinlə olursa niyə birinci xəlifə təyin olunmadı və seçildi, yenə də əgər ortada bir təyin varsa, niyə Qədir-Xuma əməl olunmadı. Üçüncü xəlifənin müəyyən olunması isə ümumiyyətlə fərqli oldu və ixtilaflarla qarşılandı, nəticədə sonda onun əleyhinə üsyanla və qanla bitdi. Onun Əməvi sülaləsindən (Bəni Üməyyədən) olması, və ən əsası xilafətə gəlmə forması tam fərqli oldu. Belə ki, ikinci xəlifə altı nəfərlik əshabdan ibarət şura müəyyən etdi və əmr etdi ki, xəlifəni onlar öz aralarında seçsinlər. Bu birinci və ikinci xəlifənin məqama yetişmələri yolundan tam fərqliydi. Dördüncü xəlifə İmam Əli isə üçüncü xəlifənin zamanındakı üsyan, etirazlar, qətl, xaos, özbaşnalıq fonunda baş verdi. Başını itirmiş və nə edəcəklərini bilməyən müsəlmanlar İmam Əlinin evinə doluşub, onun xəlifə olmasını istədilər və beyət etdilər. Belə demək olar ki, çarəsiz qaldıqları halda Qədir Xum yada düşdü. O məlum şurada olan namziəd xəlifələrin digər dördü də hələ sağ idi, amma onlara deyil İmam Əliyə müraciət etdilər. Burdan deyirik ki, Qədir-Xum yadlarına düşdü. Onlar sonrada İmam Əliyə "biz səni xəlifə seçdik" kimi sözlər eşitdirsələr də İmam Əli hər dəfə onlara əsl həqiqəti çatdırır, hətta bir dəfə Kufə məscidində "Ruhbə hadisəsi" kimi tarixdə tanınan toplantıda böyük kütlənin qarşısında Qədir-Xum hadisəsinin şahidlərini toplayır və onları Allaha  and verərək həqiqəti

söyləmələrini isəyir. O zamana qədər sağ qalan otuz nəfərdən çox hal şahidi İmam Əlinin Peyğəmbər tərəfindən Qədir-Xumda xəlifə təyin edildiyini etiraf edirlər. İmam Əli isə orda da dəfələrlə başqa yerlərdədə belə buyurur ki, siz çarəsiz olduğunuz üçün mənim qəsb edilmiş haqqımı məcbur qalıb özümə qaytardınız. Mən Qədir-Xumdan xəlifə idim, amma 25 il sonra qəsb etdiyiniz çarəsiz qalıb haqqımı geri verdiniz. İmam Həsən Müctəba tənha raşidi xəlifəsi oldu ki, bu maneələrin heç birini yaşamadı və haqqı olan xəlifəliyə oturdu, çünki insanlar beş ilə yaxın İmam Əli xilafəti dönəmində artıq xəlifəliyin necə formalaşmasını, Allahın göstərişi və Peyğəmbərin təyini ilə olduğunu bilirdilər.

**Ondan sonrakı "xəlifələr"**

həttа sülh müqaviləsi ilə xəlifə ollan Müaviyə belə raşidi xələfilərdən yəni İslam xəlifəsi saılmadı. Ondan sonrakılar hamısı özlərinə "əmirül muminin" dedirtsələr də, ərəb xəlifəsi, sülalə səltənəti kimi yadda qaldılar. Heç bir tarixdə raşidi xəlifələr, ərəb xəlifələri kimi yad olunmur, yalnız raşidi xəlifələri İslam xəlifələri kimi tarixdə qalıblar. Burda da İmam Həsənin sülhü və İmam Hüseynin qiyamı əsas rol oynadı, amma bu barədə sonra. Çünki bəziləri Müaviyəni də raşidi xəlifələrindən saymaq istəyirdilər, amma, bu təbliğatın bir hissəsi İmam Həsənin sülhü ilə, yerdə qalan hissəsi də İmam Hüseynin qiyamı ilə alt üst oldu. Əlbəttə Şeyx Müfidin də "Əl-İrşad" kitabında istinad etdiyi əsasən əhli sünnə mənbələrində olan Peyğəmbərin hədisi də çöx önəmlidir. Peyğəmbər Qədir-Xum hadisəsi ətrafında baş verən hadisəlrəə rəğmən belə bir hədis buyurmuşdur: "Məndən sonra xilafət otuz il davam edər, sonra səltənətə çevrilər." 11- ci hicri ili səfər ayının 28 də Peyğəmbər dünyadan getdi, 41 ci hicri ili rəbiül-əvvəl ayınn 24 də İmam Həsən xəlifəliyi bitdi. "Raşidi xəlifələri" kəlməsi də burdan formalaşır, yəni doğru xəlifələr. Peyğəmbərin bu hədisin möhürünü İmam Hüseyn qiyamı və Yezid bin Müaviyənin Peyğəmbər ailəsinə etdiyi zülmü vurdu.

**Əgər sual versəz ki,**

Bəs nə əcəb İmam Həsən maneəsiz, Peyğəmbər deyən kimi xilafətə yetişdi və müharibə vəziyyətində olan Müaviyədən başqa hamı olnu qəbul etdi. Cavabı üçün yenə İmam Əli və onun  xilafət dönəminə qayıtmalıyıq, yuxarıdakı mövzunu bir az genişlətməliyik. İslam tarixinin bütün suallarının cavabı  Hz. Əlidə olduğu kimi bu sualın cavabıda ondadır. İmam Əılinin xilafət dönəmində İslam tarixində "futuhat", yəni yeni fəthlər, İslam coğrafiyasının genişlənməsi baş vermədi, öncəki xəlifələrdən fərqli olaraq. Ümumiyyətlə görünən odur ki, İmam Əli Peyğəmbərdən sonrakı fəthləri önəmli görmürdü. Çünki Peyğəmbərdən sonra, Qəıdir-Xum

göstərişlərinə əməl etməməklə müsəlmanlar böyük yanlışa imza atmış, necə deyərlər rotasını, xətti əymişdilər. Əlbəttə İmam Əli özü və övladları zaman - zaman bu fəthlərdə iştirak ediblər Amma əsas məsələ yolu əslinə qaytarmaq idi. İmam Əli xilafəti dönəmində bu məsələ ilə ciddi məşğul oldu, baxmayaraq ki, çox böyük daxili çəkişmələr və müharibələr yaşadı, o yolu əslinə qaytara bildi, ona görə İmam Həsən maneəsiz xəlifə ola bildi. Yəni insanlar bilirdilər ki, xəlifə necə müəyyən olunur, haqq və batil aşkar görünürdü. İmam Əli ilə artıq yolu əymiş İslama rəhbər ola bilməzdi, əgər olacaqsa deməli onun məqamı İslamdan deyil, bunu da sonradan əməldə İmam Hüseyn göstərdi.

**Sülh Peyğəmbərin və məsum Əhli-beytinin ilk təklifi**

olub, istənilən halda İslamın yolu qan tökülməsinin qarşısnı almaq olub. İslam yaranan gündən, Peyğəmbərin zamanından bütün məsum imamların qan tökülməsinin qarşısını almaq üçün sülh təklifi ortalıqda olub, hətta ilk qan heç vaxt müsəlmanlar tərəfindən axıdılmayıb. Bu qayda məsumlardan sonrakı dönəmlərdə də sağlam müsəlmanlar tərəfindən icra olunub. Əlbəttəki, təslimçilik, zülmə qəbul etmək, izzətsiz sülhdən söhbət etmirik, bu yol məsumların yolu olmayıb, amma anlaşma, İslamın üsuluna uyğun sülhlə qan tökülməsinin qarşısını almaq harda mümkün olubsa məsumlar ona riayət ediblər. Yuxarıda adını sadaladığımız Hüdeybiyyə sülhü, İmam Əlinin Cəməl və Süffyn döyüşlərindən öncəki sülh çağırışları, hətta İmam Hüseynin sona qədər buna can atması Əhli-beytin haqq mücadiləsinin bir hissəsi olub. İmam Əli Müaviyəni uzun müddət məktublarla, daha sonra elçilər vasitəsiylə qan tökülməsinin qarşısını almağa çağırırdı. Əmin olmaq lazımdır ki, həmin şəraitdə İmam Həsənin yerində İmam Əli ya İmam Hüseyn yaxud digər bir məsum, hətta Peyğəmbərin özü belə olsaydı o da bu sülhü imzalayardı.

**Hüdeybiyyə sülhü**

və Həkəmiyyət iki tarixi mövzudur ki, İmam Həsənin sülhü mövzunu müzakirə edərkən mütləq yad edilməlidir, çünki, birinciylə oxşarlıq, ikincilə bağlılıq var. Həkəmiyyətə qısa işarə etmişik amma əsas sözü hələ deyəcəik. Hüdeybiyyə sülhü isə hicrətin 6-cı ilində baş verib. O da zahirdə müşriklərin xeyrinə olsa da, nəticədə faydası müsəlmanlara oldu və hətta Məkkənin fəthinə gətirib çıxardı. Hüdeybiiyyə sülhü Məkkənin fəthinə, İmam Həsənin sülhü ümmətin qorunmasıyla nəticələndi, İslamı hifz edən Kərbəla qiyamına Aşura hərəkatına müqəddimə oldu. Hadisənin xronoloji olaraq nəzərdən keçirsək, hicrətin altındı ilində Peyğəmbəri Əkrəm 1400 nəfərlik müsəlman toplusuyla hələ müşriklərin əlində olan Məkkəyə Ömrə ziyarəti

həyata keçirməyə görə hərəkət edir. Hüdeybiyyə adlanan yerdə müşriklər müsəlmanların qarşısını alırlar  və irəli hərəkət etməyə imkan vermirlər. Peyğəmbər Osman bin Əfvanı müşriklərlə görüşı və danışıqlara göndərir. Osmandan bir müddət xəbər olmur, müsəlmanlar narahat olur və müharibə edəcəkləri zərurətində qaldıqlarını düşünürlər. Müsəlmanlar döyüş hazırlıqlı və silah - sursatlı olmadıqları üçün təlaşa düşürlər. Peyğəmbər onların bu təlaşını görür və onların yenidən beyət etmələrini istəyir. Rəsuli Əkrəm bir ağacın altında oturur və bir nəfərdən başqa hamısı onunla yenidən beyət edir, beyətlərini təzələyirlər. Buna "Rizavan beyəti" deyilir. Bundan sonra Osman gec də olsa qayıdır və müşriklərlə döyüş baş vermir, əksinə, müşriklər danışıqlar üçün elçi göndərirlər və İslam Peyğəmbəri müşrüklərə sülh təklif edir. Maraqlı və İmam Həsən qiyamına bənzər cəhətlərdən biri də budur ki, zahirdə güclü olan gücsüzlə sülhə razılaşır. 1400 nəfərlik döyüş silahı olmayan müsəlmanlarla onlardan qat-qat güclü və hazırlıqlı olan müşrüklər sülh bağlayır. Gecə-gündüz İslamı bitirmək istəyən müşriklər Peyğəmbərində daxil olduğu 1400 nəfərlik adi geyimli və bellərində yalnız  kiçik bir xəncər olan müsəlmanları ordaca məhv edib İslamı sona çatdıra biləcəkləri qüdrətdə olmalarına baxmayaraq sülhə razılıq verirlər və sülh bağlanır. Bu eyniylə İmam Həsənlə Müaviyənin sülhünə bənzər bir epizoddur. Zəif, ordusu parçalanmış, xəyanətə uğramış, kiçik bir qüvvə ilə qalan İmam Həsəni bir həmlədə qüdrətli Şam orusu ilə məhv edə biləcək gücdə olan Müaviyə ömrü boyu can atdığı Əli ailəsini bir həmlədə məhv etmək fürsətini İmam Həsənlə sülh etməyə dəyişir. Hüdeybiyyə sülhünə görə, müsəlmanlar geri qayıdırlar, gələn il üç gün Məkkədə qalmaq şərtiylə Ömrə ziyaətinə gələcəklər. On il Məkkə müşrikləri ilə müsəlmanlar müharibə etməyəcəklər. Qəbilələr hər hansı tərəf keçməkdə, yəni Mədinəyə gedib müsəlman olmaqda, yaxud Məkkəyə gəlib müşrik - bütpərəst olmaqda azaddırlar.  Müsəlmanlar səhvən Məkkəyə getsələr geri qaytarılmaycaq, məkkəlilər səhvən Mədinəyə getsələr müsəlmanalr onları mütləq Məkkəyə qaytaracaqlar. Beləcə zahirdə müşriklərin xeyrinə olan bir müqavilə bağlandı və müsəlmanllar geri qayıtdılar.

**Məkkə müşrikləri ilə, Müaviyənin sülh anlayışları**
əsasən bir neçə məsələyə köklənmişdilər və elə buna görə də sülhə imza atdılar. 1) Sülh müqaviləsinin zahirinə aldandılar, çünki zahirdə müqaviləyə baxdıqda qalib kimi görünürdülər. 2) Müqavilənin özü və imzalanması əsas idi, onlar yazılanlara əməl etmək fikrində deyildilər. 3) Onlar belə düşünürdülər ki, qarşı tərəflə anlaşmaq zərurətdir və mövcud vəziyyətdə savaş heç nəyi həll etmir. 4) Məkkə müşrükləri artıq qürülmuş bir İslam xilafəti ilə üz-üzəydilər, Müaviyə isə bilirdiki xəlifəliyi rəsmiləşdirmək üçün mütləq İmam Həsənin yəni həqiqi xəlifənin ona

hansı yollasa razılığı gərəkdir. Amma bu onların reallığı idi həqiqət isə fərqliydi. Hər reallığ  həqiqət deyil. Hər dörd vəziyyətdə həqiqət reallığa qalib gəldi.

**Peyğəmbər və İmam Həsənin sülhü qəbul etmələrində oxşar cəhətlər**
çoxdur. Peyğəmbər niyə sülhü qəbul etdi? 1) Müsəlmanlar ən azından daim məkkəlilərdən yaşadıqları problemlərdən on il azad olurdular və özlərinə gəlmək, toparlanmaq üçün böyük bir fürsət yaranmışdı. 2) Hüdeybiyyədəki müharibənin necə nəticələnəcəyi məlum deyildi, müsəlmanlar böyük ehtimal məğlub ola hətta İslıam aradan gedə bilərdi. 3) Əsas düşməndən əmin-amanlıqda olmaqla İslamı daha geniş şəkildə yaymaq olardı. (Bu belə də oldu, Məkkə müşriklərinin xovfundan İslamı qəbul edə bilməyənlər bu sülh müqaviləsindən sonra rahatlıqla müsəlman oldu) 4) On ilə yaxındır ki, Peyğəmbər başda olmaqla bütün müsəlmanları məhv etmək istəyən Məkkəli müşriklər artıq onlarla hesablaşmalı oldu və ilk dəfə rəsmi olara İslamı, Peyğəmbəri, müsəlmanları və xilafəti qəbul etdilər. (Ona qədər Hz. Muhəmmədi peyğəmbər kimi belə qəbul etmirdilər.) 5) Ən başlıcası isə Peyğəmbərin bildiyi amma heç kəsin bilmədiyi bir gerçək var idi və o da Məkkənin fəthinə yolun açılmasıydı. Məkkə fəth olmayana qədər İslam tam oturuşmamışdı. Növbəti il hicrətin 7-ci ilində Peyğəmbər 3000 nəfərlə müqaviləyə uyğun Məkkəyə ömrə ziyarətinə gəldi, üç gün Məkkədə qaldılar. Müşriklər qarşıdurma yaranmamaq üçün Məkkəni üç günlük tərk etdilər. Ondan sonra Məkkə müşrükləri müqaviləni pozdular və 8-ci hicri ilində müsəlmanlar orduyla Məkkəyə gəldilər və müşrüklər döyüşsüz təslim oldular. Bu sülhə görə Peyğəmbərə etiraz edənlər o zaman yanlışlıqda olduqlarını dərk etdilər.

**Peyğəmbərə də sülhə görə etiraz edildi, imam Həsənə də**
çünki, hər ikisinin ətrafında  cahil, düşüncəsiz müsəlmanlar var idi. Peyğəmbəri bu sülhə imza atmaqla İslamı və müsəlmanlara zərər verdiyini və zəif düşürdüyünü bildiridilər. Eyni iddia İmam Həsənin sülhündən sonra da ona qarşı baş verdi. Fərq bundaydı ki, Peyğəmbərə etiraz edənlər Məkkə fəthində yanlışlarını anladılar amma qəlblərindəki etiraz cürəti Qədir-Xum hadisəsiylə yenidən baş qaldırdı. İmam Həsənə etiraz edənlər çox gec ayıldılar, onlar İmam Hüseyni də tək qoyub, vədələrinə əməl etməyib müsibətin səbəblərindən oldular, sonrakı peşmançılıqları isə artıq çox gec idi.

**Xilafət vasitəydi, dini qoruyan İmamətdi**

xəlifəlik sözsüzdür ki, dini qorumağa, müsəlmanları himayə etməyə böyük bir dəstək və kömək idi, amma əsl deyildi. Bütün zamanlarda dini, təkallahlığı, Allah yolunu qorumaq üçün Tanrı imaməti tanıtdırıb. Nübüvvtə dinin insanlara çatdırılması, imamət isə həmin dinin qorunması olub, peyğəmbərlər nübüvvət məqamı ilə yanaşı imamət məqamına da sahib olublar, sadəcə İslam Qiyamətə qədər qalacaq və sonuncu din olduğundan, eyni zamanda Hz. Muhəmməd axırıncı din gətirən olduğundan imamət bu dəfə daha qabarıq göründü. Muhəmməd peyğəmbərlə nübüvvət bitdi, amma imamət davam edirdi, imamların nübüvvət məqamı olmadığı üçün onları fərqli qəbul edənlər oldu. Bu da təbiidir ki, dini Qiyamətə qədər qoruyanlar olmalıdır, Allah doğrudur ki Qoruyandır amma bu aləmin işlərini vasitəylə yönəldir, canı da bir başa özü ala bilər, amma ölüm mələyi vasitəsiylə alır, ruzini zəhmət vasitəsiylə verir, elmi çalışmaq vasitəsiylə, şəfanı müalicə vasitəsiylə verir, dini peyğəmbərlik vasitəsiylə çatdırır, imamət vasitəsiylə qoruyur. İmam Həsən xilafəti sülh vasitəsiylə müəyyən səbələrdən müvəqqəti olaraq Müaviyəyə təhvil verdi, imaməti isə onun ilahi missiyasıydı. O əslində xilafəti müvəqqəti təhvil verib, imaməti qorudu ki, dini və ümməti qorumaq missiyasını həyata keçirə bilsin. Dinin qorunması imamətin yaşaması lazım idi. Doğrudur özündən sonrakı İmam bəlliyidi amma bu dəfəki xətər bütn imamət və onun davamçıları üçün idi.

**Hz. Musa Fironun əlində qorunduğu kimi, xilafət də Müaviyənin əlində**
Qorundu bu sülh ilə. Amma bu o demək deil ki, Firovn Musani himayə etdiyi üçün və Müaviyə xialafəti müvəqqəti əlində saxladığı üçün doğru və düzgün adamlar idilər, onların kimliyi bəlli idi. Həmin zaman xilafətin qorunması müsəlımanların toparlanması, özünə gəlməsi, yenidən güc toplaması, ümmətin qorunması üçün lazım idi. Musa peyğəmbəri və təkallahlığı məhv etmək istəyən Firon, xanımı vasitəsiylə onları qorumaq məcburiyyətində qaldı. İslamı və Əhli-beyti məhv etmək istəyən Müaviyə də bu sülh müqaviləsi vasitəsiylə onları qorumaq məcburiyyətində qaldı.

**Sülhə əməl etmədilər**
və bunu Peyğəmbər də, İmam Həsən də bilirdi, onlar əvvəldən dərk edirdilər qarşı tərəf əhdinə əməl etməyəcək. Bunu bildikləri halda sülhə razılaşdılar. Çünki əsas sülhün bağlanması və bu müqavilədən ümumi olaraq yaranan faydalar idi. Məkkə müşriklərinə yaxud qəsbkar Müaviyəyə zatən kim inanardı ki?! Əslində bu iki

müqavilənin bir oxşar cəhəti də var idi, tərəflər eyniydi. Birinci müqavilədə bir tərəf Peyğəmbər, digər tərəf Əbu Süfyan, sonrakında bir tərəf Peyğəmbərin böyük nəvəsi İmam Həsən, digər tərəf Əbu Sufyanın kiçik oğlu Müaviyə idi. Bir-birlərin yaxşı tanıyırdılar. Bir tərəf zülm edən, əhdini pozan, əmanətə xəyanət edənlər, digər tərəf haqq və ədalət mücəssəməsi, əhdinə əməl edən, əmanətə sədaqətlə tanındı.

**Həkəmiyyəti puç edən sülh**

də deyə bilərik İmam Həsənin Müaviyə ilə arasında bağlanan müqaviləyə. Əslində Həkəmiyyətin batil olduğunu İmam Əli, zamanında öncədən də, sonradan da dəfələrlə bəyan etmişdi, amma çox təəssüf ki, həmin o cahil və düçüncəsiz müsəlmanlar onu da dərk etmədilər. Qeyd edək ki, “cahil” kəlməsi Quran məntiqiylə təfəkkür etməyənə, düşüncəsiz insanlara aid edilir, elmsiz və təhsilsizlərə deyil. İslam daim cahilliklə mübarizə aparıb, Quranın insanı təfəkkür və düşüncəyə çox dəvət etməsinin bir səbəbi də elə budur ki, həssas mövqelərdə insana agahlıq verən, doğru yolu seçməyə kömək edən təfəkkür və düşüncəsidir, namaz ya oruc deyil, bunlar bir vacib ibadətdir, haqqla batili ayırd edən ağıl, məntiq, təfəkkür və düşüncədir. Burda artıq Həkəmiyyət haqqında xonoloji məlumat vermək zərurəti var. Həkəmiyyət 37-ci hicri ilinin səfər ayında başlayıb, 38 ci hicri ilinin rəbiül-əvvəl ayında tamamlanan İslam xəlifəsi İmam Əli ilə xilafətə tabe olmayan Şam valisi Müaviyə arasındakı müharibənin sonunda baş verən hakimlik hadisəsinə deyilir. İmam Əlinin 90 000 – 120 000 arası tarixdə qeyd olunan xilafət ordusuyla üsyançı Şam valisi Müaviyənin elə həmin qədər olan qoşunları ilə vuruşdu 45 000 dən çox Müaviyə qoşunlarından, 25 000 yaxın xilafət əsgərlərindən itki oldu. İmam Əlinin ordusu uzun zaman Müaviyəni haqqa çağırmasına və nəsihət etməsinə baxmayaraq qarşı tərəf İslam xilafətinə qarşı çıxmaqdan imtina etmədi, keşmiş xəlifə Osmanın qatilillərinin tapılmaası iddiası ilə ortaya şübhə toxumu səpdi. İmam Əli sonda qoşunlarını Şama tərəf hərəkət etdirdi və Şamın yaxınlığında Suffeyn adlanan yerdə Müaviyə qoşunları ilə toqquşdu. 14 ay sürən savaşdan sonra Xilafət qoşunları tam qələbəyə çatan ərəfədə, Əmr bin Asın hiyləgər planını Müaviyə icraya qoydu, üsyançı əsgərlər döyüşdən əl çəkib nizələrinə Quran ayələri yazılan dəri varaqlar sancıb, “biz döyüşmürük Quran əsasında hakimlik istəyirik” şüarı verdilər. İmam Əlinin qoşunundakı cahilər bu hiyləyə aldanıb, qılıncı yerə qoydular və İmam Əlini döyüşü dayandırmağa və Quran əsasında və əgər elə alınmasa Peyğəmbər sünnəsi əsasında hökm verilməsinə vadar etdilər. Nəhayətdə Həkəmiyyət – hakimlik baş tutdu. Imam Əlini hadisədən kənarda saxlayıb, onun etirazlarına baxmayaraq xilafət qoşunları tərəfindən Əbu Musa Əşəri (Əbdullah bin Qeys), üsyançı qoşunlar

tərəfindən isə Müaviyənin sağ əli, Fələstin nümayəndəsi hiyləgər Əmr As hakim təyin olundu. Həkəmiyyət "Dəvmətul-cəndəl" adlı məntəqədə baş tutur. İkili müşavirədə Həm Əlini və həm Müaviyəni kənarlaşdırıb yeni bir xəlifə təyin etmək qərarlaşdırırlar. Amma Əmr As burda da hiylə işlədir, birinci Əbu Musa Əşərini hörmətlə minbərə çıxarır, oo isə anlaşmaya əsasən hər ikisini xilafətdən uzaqlaşdırır. Əmr As isə minbərə çıxıb Əlini xilafətdən uzaqlaşdırdığını və Müaviyəni xəlifə təyin etdiyini bildirir. İmam Əlinin əvvəldən olan etirazlarına baxmayaraq Əbu Musa Əşərini dəyişməyən xilafət qoşunu yanlış etdiyini, aldadıldığını dərk etsədə amma artıq gec idi. Əslində İmam Əli Həkəmiyyətdə zahirən bitir, bu bir məcaz olsa da, gercək belə idi. İmam Əli sonradan bir çıxışının sonunda deyir "Məni o qədər endirdilər, kiçiltdilər, əzdilər ki, dedilər Müaviyə və Əli". İmam Əli Həkəmiyyəti əvvəldə olduğu kimi baş tutandan sonrada qəbul etmədi və nəticələrini tanımadı və xilafətinə davam etdiridi, o bu hakimliyi əvvəldən batil adlandırırdı. O əvvəldən bildiridi ki, mən elə Quranın və Peyğəmbər sünnəsinin hökmüylə  Müaviyəylə vuruşuram. Müaviyə Qurana və Sünnəyə tabe olsa iş Süffeynə çəkməzdi. Amma çifayda. Müaviyə isə artıq özünü xəlifə zənn etməyə başladı, ixtiyarında olan Şam, Fələstin, sonradan Misirdə xəlifəlik etməyə başladı və artıq İmam Əlinin xəlifə olduğu ərazilərə gecə hücumları, kiçik dəstələrlə həmlələr həmlələr həyata keçuridi. Məhz Həkəmiyyətdən sonra Müaviyə özünə "Əmirul-muminin" dedirtməyə başladı. İmam Əli isə Müaviyənin bu hadisədən cürətlənəndən sonra törətdiyi cinayət və terror əməllərində yaxın sərkərdələrini itirirdi, xaosun qarşısını almağa çalışırdı. İmam Əli Həkəmiyyəti tələb edən cahil tərəfdarlarının sonradan xəvaricə çevrilib ona düşmənçilik bayrağı qaldıranları Nehrəvan savaşında məğlub etdi. Amma çox təəssüf ki Müaviyə ilə savaşa hazırlaşsa da qoşunlarını toparlaya bilmədi, bu artıq çox çətinliklə həyata keçirdi. Xəvaricin qalıqları tərəfindən terror edilib şəhid olması ilə bu ordunu İmam Həsən Müaviyə ilə döyüşə apardı. Müaviyə İmam Əlinin şəhadətindən sonra 60 000 orduyla Şamdan İslam xilafətinin mərkəzi Kufəyə tərəf hərəkətə keçdi, İmam Həsən 40 000 xilafət ordusuyla onlara tərəf hərəkət etdi. Böyük və nəhayi döyüş olmasa da kiçik döyüşlər baş tutdu, Müaviyə psixoloji müharibədə qalib gəldi, xilafə orusunu süstləşdirdi, çox böyük məbləğ müqabilində xilafət ordusun qoşun başçılarını ələ aldı, casuslar vasitəsiylə İmamı terror etdirib yaraladı. Vəziyyət bu qədər İmam Həsən üçün ağır olduğu bir vaxtda Müaviyə tam nizami qələbəyə bir addım qalmış, ordusu dağılmış, öz qoşunları tərəfindən hücuma məruz qalmış, yaralı və tənha qalmış sərkərdəyə sülh təklifi edir, bəzi tarixi mənbələrə görə hətta imazalanmış və tarix qoyulmuş bir boş vərəq göndərir ki, şərtləri İmam Həsən yazsın. Bu barədə hələ söhbət edəcəyik, bu başlıqda məqsədimiz  isə Həkəmiyyətlə İmam Həsən sülhündə olan  bir bağı tanıtmaq idi.

**Bir tarixi yad edək,**
Peyğəmbərin zamanında, hicri 5-ci ilində Həkəmiyyətin baş tutduğu "Dəvmətul-Cəndəl" məntəqəsində müsəlmanlar müharibə edirdi, orada ikinci savaşda baş verib və 9-cu hicri ilində olub. Bu məntəqə indi Səudiyyə Ərəbistanı ərazisi olsa da o zamanki, Şama yaxın torpaqlardır. Peyğəmbəri Əkrəm həmin savaş gedən "Dəvmətul-Cəndəl" məntəqəsi haqqında hələ o zaman belə buyurur: "Dəvmətul-Cəndəldəki iki hakim hər ikisi yolunu azar, onlara inanıb ardınca gedənlər də yollarını azarlar." (Müntəxəbut-təvarix, səh. 168) O zaman bu hədisi eşidənlər tam anlamasalar da, Peyğəmbərin vəfatından 27 il sonra baş verən Həkəmiyyətdən sonra hal-şahidləri bunu tam çılpaqlığı ilə anladılar.

**İmam Həsənin sülhə imza atması Həkəmiyyətin batil olduğunun sübutu**
oldu. Çünki sülh müqaviləsində İmam Həsən xilafəti idarə etmək üçün Müaviyəyə müvəqqəti təhvil verir. Xilafət sözü ümumi və mütləq şəkildə qeyd edilib, burda İmam Həsənin idarəçiliyndə olan ərazilərdən söhbət getmir, xəlifə və onun xilafətindən söhbət gedir. Əgər Həkəmiyyət haqq idisə, xilafətdən İmam Əlini uzaqlaşdırıb, Müaviyəni xəlifə təyin etmişdilərsə ki, zahirdə bunu etmişdilər, onda "xilafətin" "rəhbəri" olan "xəlifə" Müaviyə başqa hansı xilafəti İmam Həsəndən on illik idarə etmək üçün təhvil alır?! Axı o Həkəmiyyətə görə o zatən "xəlifəydi"və özünü xəlifə bilirdi və bu istiqamətdə addımlar atırdı. Deməli o özü də bilirdi ki, Həkəmiyyətlə xəlifə olmaq olmaz və Həkəmiyyət batildir. Əgər Həkəmiyyətlə Müaviyə xəlifə olmuşdusa sülhnamədə "xilafət" sözü işlənməməliydi, "İmam Həsənin hakimiyyətində olan ərazilər", "İmam Həsənin hakimiyyəti" yazılmalıydı. Necə ki, Süffeyn savaşından öncə İmam Əli xəlifə olduğu dönəmdə Müaviyəyə məhz belə mətnlə müraciət edərək onu hakimiyyətini ona təhvil verməyə çağırırdı. Bax bu İmam Həsən Müctəbanın qeyri-müstəqim şəkildə Həkəmiyyətin batil olduğunu sülhə imza atmaqla sübut etdi, hələ Müaviyə də imza atıb bu gerçəyi qəbul etdi. Bu yazıda bir neçə belə məqama işarə edəcəyik ki, hər birində İmam Həsənin sülhünün qeyri-müstəqim faydalarını görəcəyik.

**Sülhün təsir dairəsinə daxil olan**
hadisələrədən biri də, kökü keçmişə gedib çıxan "lənətlənmiş əhdi-peyman" kimi tanınan tarixin bir səhifəsini və ona inananların istəklərini puç etməsi oldu. Peyğəmbərin ömrünün sonlarında, daha dəqiq ilk və sonuncu Həcci ərəfəsində və ondan sonra demək olar ki, Peyğəmbərin vəfatı və hətta Fatimeyi Zəhranın

şəhadətinə qədər müəyyən proseslər baş vermişdi. Biz həmin hadisələr haqqında geniş şəkildə “Beş kimsənin sorağında”nın İslam Peyğəmbərinə aid olan “Nurun vidası” və Fatimeyi Zəhra haqqında olan “Günəşin usanması” bölümündə işarə etmişik. Həmin hadisələrdən birini isə burda ümumi olaraq qeyd edirik, bu təqribən sayları bəlli olan qırx nəfərlik qrupun əhdi peyman bağlaması idi, yanlış yolda olduqları üçün bu əhdi peymanları tarixdə “lənətlənmiş əhdi peyman” kimi qaldı. Hadisəyə qısa işarə edək və onu da əvvəldə deyək ki, Bin Şəhr Aşub “Mənaqib” kitabında, Bəhrani “Bürhan” təfsirində, Təbərsi “Ehticac” əsərində və digər alimlərin yazılarında bu barədə geniş yazılıb. Ordan başlayaq ki, Məkkənin fəthindən sonra, İslam Hicazda tam qüdrətə yetişdi və Tohid bayrağı bütün Ərəbistan yarımadasını, hətta ətrafını bürüdü. Bir tərəfdən də hələ İslamın ilk günlərindən İslam Peyğəmbərinin Əli bin Əbu Talibin fəzilətlərinə işarə etməsi, getdikcə vüsətlənmişdi. İslamı ilk qəbul edən kişi, ilk aşkar dəvətdə ona beyət edən şəxs, Quranın ilk katiblərindən biri, ilk hədis yazan iki şəxsdən biri, Peyğəmbərin yataqda terror ediləcəyini bildiyi halda onun yerində yatan insan və s. Artıq İslamın əsas tanınmış simalarında: Ənsar - mədinəli müsəlmanlar, Mühacir - İslamın əvvəllərində Mədinəyə köçən Məkkə müsəlmanları, Qüreyş – Məkkədə yaşayan məkkəli müsəlmanlarda şübhə yox idi ki, Peyğəmbərin canişini və ondan sonrakı xəlifə İmam Əlidir. Amma bu sadaladığımız qrupların Peyğəmbərdən sonraya öz planları ən azı niyyətləri var idi və hər tərəf müəyyən səbəblərdən özünü Peyğəmbərdən sonrakı uca məqamda görürdü. Məkkəlilər, daha dəqiq Qureyş artıq müsəlman olmuş Əbu Sufyanın rəhbərliyi ilə öz nəslindən əməvilərdən (Bəni Üməyyədən) kimisə rəhbər görmək istəyirdi. Bunu da qeyd edək ki, tarixdə “Qureyş”, “Məkkəlilər”dedikdə əsasən Məkkədə yaşayan, yəni Mədinəyə hicrət etməyən, Məkkənin fəthindən sonra çoxsu məcburi müsəlman olan, cahiliyyət dövründə əyan-əşrafdan sayılan, uzun zaman İslam Peyğəmbəri ilə mübarizə aparan, müharibələr edən qureşlilər və xüsusilə də  iki böyük qəbiləsindən biri olan əməvilər – Bəni Üməyyə nəzərdə tutulur. Çünki Onların niyyəti bəlli idi və sonralar hakimiyyətə sahib olmaqla etdikləri cinayətlər, İslama bütpərəstliyin əlamətlərinin gətirilmə cəhdi, cahiliyyət dövrünün adətlərini İslam mədəniyyəti kimi təqdim olunması və s. buna sübut oldu. Onların əksəriyyəti İslamın qarşısında dura bilməyib, məcburiyyətdən müşriklikdən - bütpərəstlikdən əlçəkib İslamı artıq daxildən dağıtmaqdan ötrü müsəlman olmuşdular və illa onların Muhəmmədə və Əliyə olan kin-küdurətləri soyumamışdı. Ənsar - mədinəlilər də hakimiyyətə sahib olmaq istəyirdilər, çünki onlar əzəli düşmənləri məkkəliləri - Qüreyşi yaxşı tanıyırdılar və bilirdilər ki, onların müsəlmanlığı boş şeydi və əllərinə fürsət düşən kimi Ənsardan Bədrin, Ühüdün, Xəndəyin heyfini çıxacaqlar. Ona görə xilafətə və ən azı mərkəz olan Mədinəyə sahiblənmək istəyirdilər. Mühacirlər isə özlərini hamıdan üstün bilib, İslamdakı öncüllükləri ilə

öyünüb bu məqama özləri sahiblənmək niyyətindəydilər. Əslində onların hamısına cavab olaraq Peyğəmbər son vida həccində, Qədir Xumda hamının artıq bildiyi məsələni rəsmiləşdirdi və Hz. Əlini öz canişini təyin etdi. Bu sadə müsəlmanlardan fərqli olaraq rəqiblərə çox da sürpriz olmadı, çünki bu sadəcə bildiklərinin rəsmi təsdiqi idi. Çox maraqlıdır ki, Qüreyş kin-küdurətindən, Mühacir paxıllığından, Ənsar isə inamsızlığından buna qarşı çıxırdı. Ənsar inanmırdı ki, hz. Əli onları qoruya, məkkəlilərdən - qüreyşlilərdən müdafiə edə bilər. Amma bu inamsızlıq Allaha, Peyğəmbərə inamsızlıq idi. Axı Peyğəmbər vəhydən başqa bir söz danışmırdı, onun sözü Allahın sözüydü. Mühacirlər isə sırf ilk müsəlmanlardan olduqları üçün özlərini Əli bin Əbu Talibdən aşağı bilmirdilər və Peyğəmbərə hər yaxınlığına birmənalı qarşılamırdılar. Qüreyş isə qeyd etdiyimiz kimi keçmişi unutmamışdı, onlar Peyğəmbər qədər Əliyə də kin və küdurət bəsləyrdilər. Təkcə Əlini və Peyğəmbər ailəsini deyil, bütövlükdə Bəni Haşmi xilafətdən kənarda saxlamaqda  Qüreyş, Ənsar və Mühacir müttəfiq idi, bunda razılaşıb sonra öz aralarında məsləni həll edəcəklərinə inanırdılar. Əslində sonda belə də oldu, Peyğəmbərin dəfniylə məşğul olan Əli və ailəsidən, hətta Bəni Haşimin ağsaqqalı Abbas bin Əbdül-müttəlibdən gizlin şəkildə xəlifəlik həvəskarları Qədir-Xumu kənara qoyub hərəkətə keçdilər.  İlk olaraq öncüllük edən Ənsar oldu, amma Mühacir hadisədən xəbər tutub, onlarla birlərşib xilafətə sahibləndi, Qüreyş isə kənarda qaldı, haqqı əlindən alınan Əlini dəstəkləməklə mane olmaq istədil, amma Əli bu dəstəyi qəbul etmədi. Əlinin bu haqq savaşının komutanı Fatimeyi Zəhra oldu, Peyğəmbərin tənha qızı yalnız şəkildə ölənədək Qədir-Xumdan difa etdi. Birgə üçlüyün birliyi də çox çəkmədi, Mühacir ikinci xəlifədən sonra kənarda qaldı, Ənsar elə birinci xəlifə seçkilərinin ilk günlərdən kənarlaşdırıldı, Qüreyş zatən kənarda qalmışdı amma hiyləli oyunlarından əl çəkmədi. Bəni Üməyyədən olan Osman bin Əfvan xilafətə gələnə qədər Qureyş rahat durmadı, amma istədiklərini xəlifə Osmanla tam həyata keçirə bilmədi. Ondan sonra artıq oyunbazlığı kənara qoydular, İmam Əlinin xilafəti zamanında qılınca əl atdılar, qan tökdülər, müharibələr yaratdılar və xilafət daxilində ilk dəfə müharibə salan, İslam xilafətinə qarşı müsəlmanlardan ilk dəfə savaş elan edən  Əməvilər oldu, daha dəqiq Bəni Üməyyənin lideri Əbu Süfyanın oğlu Müaviyə oldu. İmam Həsənin vaxtında slüh müqaviləsi ilə hakimiyyətə gəldilər. Amma İmam Həsən elə həmin təklif etdikləri sülhə imza atmaqla azuarını ürəklərində qoydu, onlar İslamı, onun xilafətini məhv etmək istəyirdi, İmam Həsən İslam xilafətini onlara müvəqqəti idarə etmək üçün əmanət verdi. Bəlkə də İmam Həsənlə sona qədər vuruşub onu məhv edib hakimiyyətə gəlsəydilər bu belə olmazdı, o azğın niyyətlərinə çatardılar, amma bunların hər hiyləsinə Allah çarə edirdi. “Onlar hiylə edərlər, Allah o hiyləyə çarə edər, Allah çarə edənlərin ən yaxşısıdır.” (Qurani - Kərim, Ali İmran surəsi, ayə 54). İndi bizim dediyimiz məsələ burdadır ki,

yuxarıda sadaladığımız qruplar Hz. Əli ilə bağlı, onu Peyğəmbər Əhli-beytini, hətta bütövlükdə Bəni Haşimi xilafətə yaxın buraxmamaqla əlaqədar iki dəfə toplaşıb öz aralarında əhd-peyman bağlayırlar, biri vida Həcci ərəfisndə Məkkədə, digəri isə Qədir Xumdan sonra Mədinədə. İmam Həsən sülhə razılaşmaqla bu lənətlənmiş əhdi peymanı da pozdu, İslam qorundu, Xilafəti hifz elədi, İslam gizli düşmənlərini tanıtdırdı. Zamanında əsasən aşkar düşmənlə - müşrük və bütpərəstlərlə mücadilə edirdi, İmam Əli və İmam Həsən, İmam Hüseyn və sair məsumlar gizli düşmənlə - münafiqlə üzbəüz idi. Münafiqlə mübarizənin tənha yolu onları aşkar etməkdir və illa onlarla mübarizənin mənası yodur, zahirdə onlarda möminlər kimidirlər. Münafiqi aşkar etmək isə çox çətindir, məkkəli müşriklər "Fəthi Məkkə"dən sonra İslamı qəbul edib münafiq müsəlman olmuşdular, zahirləri möminlərdən, batinləri müşrük və bütpərəstlərlikdə qalmışdı. İmam Həsən münafiqlərin iç üzünü sülh müqaviləsi ilə açıb cümlə müsəlmanlara göstərdi, tarixi əhdi peymanlarını puç etdi.

**Sülh müqaviləsinin mətni haqqında**

qısa onu deyək ki, bu sülh müqaviləsi İmam Həsənin haqq xəlifə olduğunu Müaviyənin özü tərəfindən də təsdiq etdiyini bəlli edir. Yəni Müaviyə də İmam Həsəni haqq xəlifə kimi tanıyırdı. Müaviyə Haqq xəlifə olan İmam Əli və İmam Həsənə qarşı üsyan etmiş və onları qətlə yetirmək istəyən, İslam xilafətinə qarşı etiraz edən və onu qəbul etməyib müharibə edən tərəfdir. İmam Həsən müvəqqəti olaraq Müaviyənin ömrünün sonuna qədər xilafətin idarə olunmasını ona həvalə edir. Sülhnaməyə görə imam Həsəndən sonrakı xəlifə də məlumdur, əgər Müaviyədən qabaq İmam Həsən dünyadan gedərsə xilafət İmam Hüseynə qaytarılacaq, yəni sonrakı xəlifə odur. Göründüyü kimi xilafət Müaviyəyə müvəqqəti və şərtlə təhvil verilir, o Quran və Peyğəmbər sünnəsiylə xəlifəlik etməlidir. Əslində Sülh müqaviləsinin bu iki bəndiylə həqiqət tam aydın olur. Bundan sonrakı bəndlər artıq sülhün ümmətə faydasıdır: Əmirəlmöminin Əliyə namaz qılarkən hörmətsizlik edib onu lənətlənməyin və söyməyin qarşısı alınmalıdır və o yaxşılıqla və xoş sözlərlə yad edilməlidir. Kufə beytül-malında (xilafətin xəzinəsində) olan beş milyon dirhəm pul Müaviyənin ixtiyarına verilməkdən istisna olunur və həmin məbləğin xərclənməsinin səlahiyyəti Həsən ibn Əlidə qalır. Həmçinin, Müaviyə beytül-maldan ayrılan payda Bəni Haşimi (Peyğəmbər nəslini) öz nəsli Bəni Üməyyədən üstün tutmalıdır. (O zaman qədər Bəni Üməyyəyə xüsusi imtiyazlar verilirdi və halanki o imtiyazlar Peyğəmbər nəslinə aid idi.) Eləcə də Müaviyə "Darabgərd" şəhərinin xəracının bir milyon dirhəmini Əli ibn Əbu Talibin rəhbərliyi altında Cəməl və Siffeyn döyüşlərində şəhid olanların ailələri arasında bölüşdürməlidir. Müaviyə bütün əhaliyə istər Şam,

istər İraq, istərsə də Hicaz və sair əhalisinə hər hansı millətdən olursa olsun bir daha təqib etməməsi və əzab-əziyyət verməməsi barədə zəmanət verməlidir. Onları Müaviyənin hökumətinə qarşı keçmişdəki müxalif fəaliyyətlərinə görə axtarışa, xüsusilə İraq əhalisini keçmiş kin-kudurətə görə təzyiqlərə məruz qoymamalı, əziyyət verilməməlidir. Bundan əlavə, Müaviyə Əli ibn Əbu Talibin tərəfdarlarını harda olursa olsunlar amanda saxlamalı və onların heç birinə əziyyət etməməlidir. Əli ibn Əbu Talibin tərəfdarlarının canı və malının hörməti qorunmalıdır. Onlar əsla təqibə məruz qalmamalı və onlara zərrə qədər də narahatçılıq yetişməməlidir. Hər kəsin haqqı onun özünə çatmalıdır. Əli ibn Əbu Talibin tərəfdarlarının malı onların özlərində qalmalıdır. Həmçinin, Həsən ibn Əli, qardaşı Hüseyn ibn Əli və eləcə də, Peyğəmbərin ailəsindən olan hər hansı bir şəxs üçün Müaviyə tərəfindən heç bir xətər icad olmamalı, heç bir yerdə onlar üçün qorxu yaranmamalıdır.
Doğrudur Müaviyə zaman - zaman müqavilənin şərtlərini pozdu, hətta əvvəldən pozmağa başladı, hətta nəhayətdə casusları vasitəsiylə İmam Həsəni terror elətdirib öldürdü zəhər vasitəsiylə, Yezidi özünə canişin təyin elədi. Amma bu sülh müqaviləsi sağlam düşüncəli, düzgün əqidəli, həqiqi müsəlmanları qorudu, onların özünə gəlməsinə, toparlanmasına səbəb oldu, bununlada yeni bir dönəmə start verildi. Müaviyə sülhü pozsada, pozmasada artıq yeni dönəmin qaçılmazdı, Qədir-Xumu unudanlar, Peyğəmbərin sözünü ciddiyə almayanlar, İmamını tək qoyanlarla gediləsi yol qalmamışdı. Yeni bir hərəkat olacaqdı, onunçun hazırlıq lazım idi, bu sülh həmin hazırlıq üçün bir fürsət idi. Əgər belə olmasaydı, yəni yeni bir dönəm bu sülhlə başlamasaydı, bəlkədə onda bu sülhün mənası olmazdı, bu sülh İmam Həsən və yaxınlarının canını qorumaq üçün deyildi, bu sülh bir mərhələni bitirib yeni mərəhləyə keçid idi. Artıq İslam xas insanların əlilə davam edəcəkdi, o möminlərin ilk nümunələri isə Kərbəlada oldu. Bu sülh müqaviləsi Kərbəlada şəhid olanların ərsəyə gəlməsinə səbəb oldu. Ona görədə həmişə deyilib ki, İmam Həsənin sülhü, İmam Hüseynin qiyamının başlanğıcı idi.

**İmam Həsən Müctəba**
isə məğlub durumda, düşmənin sülh təklifini qəbul etməklə qalibə çevrilməyi bacaran tarixin bəlkə də tək şəxsiyyətidir. O, ordusu satılmış, qorxudulmuş, özü tərəfdarları tərəfindən terrora məruz qalıb yaralanmış, hətta üsyankar ordusu onu belə qarət etmiş, qarşı tərəfdəki ordunun sayı artıq on bərabərə çatmış cəmi 34 yaşlı bir tənha qalmış amma şücaətli və cəsur sərkərdədir. O sülh müqaviləsini imzalamaqla böyük sərkərdə, siyasətçi, diplomat, dövlət xadimi olduğunu ən əsası Peyğəmbərin nəvəsi İmam Əli və Fatimənin xələf oğlu olduğunu bir daha yaddaşlara həkk edir. O, Allah hüccətiydi, o, imamdı, o,dini və ümməti qorumaqla

vəzifəliydi, o, sülhilə dini də ümməti də qorudu. O bir sülh dahisiydi, tarixdə o şərtlər altında sülhdən bu cür faydalanan ikinci şəxs yoxdur. İmam Həsən "Mübahilə" ayəsinin aid olduğu şəxslərdən, "Hədisi Kisa" da qeyd olunan beş nəfər Ali Əbadan biridir, Peyğəmbərin sevimlisi, səbr , dözüm, ibadət, bəndəçilik, şücaət, səxavət, əxlaq zirvəsindəydi. Peyğəmbərin xanımı Ayişədən nəql olunur ki, Peyğəmbər nəvəsi Həsəni tez-tez qucağına alar, bağrına basar və belə söylərdi: "Allahım bu mənim övladım Həsəni sevirəm, Səndə onu sev, həmçinin onu sevənləri də sev!" (Mutttəqi Hindi, "Kənzul_Ummal", c. 13, səh. 652)

**Müaviyə və İmam Həsən arasındakı danışıqlar**
əsasən üç ritorikada olub. Birincisi sülhə qədər olanlar, Müaviyə İmam Həsəni hədələyir, onu məhv edəcəyi və öldürəcəyini bildirir və İmamı təslim olub ona əsiri olmağa çağırır. İmam Həsən sonadək vuruşacağını bildirir və yolundan dönməyəcəyini qeyd edir. Sonra Müaviə ritorikasını dəyişir və sülh bağlamağa çağırır, müqaviləyə dəvət edir, maraqlıdır ki, buna qədər özü qan tökməklə hədələyirdi. Sülh müqaviləsi bağlanandan sonra Müaviyənin yenə ritorikası dəyişir və özünü qalib, İmamı məğlub bilir, İmamı aldatdığını, hiyləylə xilafəti ondan alığını bəyan edir. İmam isə layiqli cavabını verir və haqqlını və qalibi ona göstərir. Bu əsasən məktublarlaşmalar vasitəsiylə olur, onlardan bəziləri çox maraqlıdır və İmam Həsənin sülhdən məqsədini açıq aydın göstərir. İmam Həsən sülhdən sonra Kufədən Mədinəyə qayıdarkən Müaviyə ona yol üstü üsyançıların qiyamını yatırmasını istəyir, bir növ İmamı həmkarlığa çağırır. İmam Həsən onun məktubuna belə cavab verir: "Həsən bin Əlidən Müaviyə bin Əbu Süfyana! Səninlə müxalif olanlarala vuruşmağımı istəyirsən. Allaha and olsun ki, Allahın razılığı bunda idi ki, müsəlmanların qanının axmasının qarşısnı alım, əgər belə olmasaydı sən heç vaxt xilafətə çatmazdın. Sən özündə bilirsən ki, xəlifəliyə layiq deyilsən və o sənin deyil. Mən sənin zülmündə sənə şərik olmaq üçün sülh eməmişəm, mən qan tökülməyin qarşısnı almaq üçün sülhə razı oldum. Allah and olsun ki, əgər qılınca əl atsam birinci səninlə döyüşəcəyəm. Əgər sülhə pozmasan mən də ona əməl edəcəyəm, əgər pozsan Allah bizim aramızda hakim olacaq və Allah hakimlərin ən yaxşısıdır." (Təbərsi, "Əl-Ehticac)"

**Başqa bir məktublaşma**
daha dərin mənalardan xəbər verir və alt niyyətləri göstərir. Müaviyənin İmam Həsənə məktubundan: "Ey Həsən! Atan Əlidən sonra hakimiyyət bizə qaldı, daha sənin və qardaşının deyil. Mən zor gücünə və müharibəylə deyil, hiylə və siyasətlə

bu hakimiyətə çatdım. Əgər xilafə sənin olsaydı Allah onu səndən alıb mənə verməzdi. Elə güman etmə ki, sənin haqqın olanı səndən almışıq, bizə bu hakimiyyəti Allah verib, əgər sən layiq olsaydın, səndən alınlıb bizə verilməzdi. Mən səni hakimiyyət adamı kimi görmürəm, sən hakimiyətə layiq deyilsən, get evində otur, axirətin üçün çalış." İmam cavab məktubu yazır: "Həsən bin Əlidən Müaviyə bin Əbu Sufyana! Dünya səltənətindən əldə etdiyini məkr, hiylə, zor və zülm ilə qazanmısan, Allah və Peyğəmbəri razı olan yolla əldə etməmisən. Sən deyirsən ki, əgər biz xilafət adamı olsaydıq, Allah onu bizdən almazdı, bu kafirlərin dediyi sözdür: "Müşriklər deyirdilər ki, (əgər haqqıdrsa) niyə görə Quran iki şəhərin (Məkkə və Taifin ) böyük kişilərinə nazil olmadı?!" (Zuxruf-31). Yaxid "Müşriklər deyərdilər ki, ey Tanrım, əgər (Quran) Sənin tərəfindən olan haqqdırsa, bizim başımıza səmadan daş yağdır" (Ənfal-32). Məgər bilmirsən ki, Allah bəndələrini çətinliklərlə imtahana çəkir, sənin əldə etdiyin müvəqqəti dünyadır. Biz və sən Qiyamət günü Allahın hüzurunda olacayıq və O aramızda Hakim olacaq. Sən yalan və aldatmaqla Şam əhlinə hakimiyyət edirdin, onları doğru yoldan uzaqlaşdırdın. Amma bizim haqqımız Allah yanında qorunur. Hakimiyyəti ələ almaqla demək bizdən üstünsən deyə xəyala qapılma, sənin əldə etdiyin səninçün rəzalət, bizim tərk etdiyimiz bizçün izzətdir. Vəssalam!" (Təbərsi, "Əl-Ehticac")

**Müaviyənin və Əməvilərin xilafəti**
qəsb etmələrinin bir cinayət olaraq tarixə düşməsi üçün mütləq İmam Həsən sülh bağlamalı və bu sülh vasitəsiylə onların cinayəti ifşa olunmalıydı. Əgər bu belə olmasaydı Müaviyə adi daxili münaqişələr nəticəsində xilafətə çatsadyı tarix onu da raşidi xəlifələrindən saya bilərdi. Əslində sülh müqaviləsilə xilafət qaydalara əsasən Müaviyəyə verilmişdi və o da altıncı raşidi xəlifəsi kimi tarixə düşməliydi. Amma bütün dünya raşidi xəlifələrini əməvi, abbasi xəlifələrindən ayırır, onları ailə səltənıti kimi tanıyır və tanıdır. İmam Həsən də, İmam Hüseyn də bilirdilər ki, Müaviyə və bütün ailəsi sülhə əməl etməyəcək və öz cinayətlərini aşkarda edib, bu məqama layiq olmadıqlarını göstərəcəklər. Xilafət bir müddət onlarda qalmalıydı ki, cinayətlərini aşkar edə bilsinlər. Bi işi - zalımın ifşasını İmam Həsən başladı, İmam Hüseyn bitirdi. Sülh onların iş üzünü ortaya qoydu və İmam Hüseyni qətl etməklə özlərini bitirdilər, necə deyərlər bütün körpüləri yandırdılar. Ona görə tarix cəmi dörd və İmam Həsənlə birgə beş doğru xəlifə - raşidi xəlifəsi tanıyır. Onlardan sonrakıları, ailə səltənəti olaraq bilir və İslamın nümayəndəsi kimi tanımır. Bu Sülhün və Aşuranın nəticəsidir. Bu iki hadisə birgə Məkkənin fəthindən sonra əməvilər başda olmaqla Qüreyşin (əsasən Qureyşin iki məşhur ailəsindən biri əməvilərin) - məkkəli müşriklərin İslamın daxilindən parçalama planını bitirdi. Bədrin, Ühüdün, Xəndəyin qisasını aşkarda ala bilməyib Məkkənin

fəthindən sonra İslam libasına bürünüənlərin  sonu oldu bu Sülh və Aşura. Ona görə İmam Əlıi, İmam Həsən, İmam Hüseyn zaman-zaman öz çıxışlarında Besət dövrünün büpərəstlərini, müşrikləri xatırlayır, onların yenidən baş qaldırdıqlarını və nə etmək istədiklərini bəyan edirdilər. Məsələn İmam Baqir və İmam Sadiq zamanında artıq bu məsələlər və belə təhlükə yox idi, artıq başqa mövzular daha çox gündəm olurdu. Bütün bunları tarixi mənbələrə və hədislərə baxanda aydın görürük. Hədislər hadisələrin, siyasi gedişatın, gündəmin bir aynasıdır. Tarixlə yanaşı onlar Peyğəmbər və onun məsum Əhli-beytinin kəlamları böyük mənbədir. Biz burda yenidən tarix danışmırıq,olan və qəbul olunan, mənbələrədə gələn tarixi faktları yanaşı qoyub müzakirə və təhlil edirik.

**Bəs xəlifə Osmanın qatili necə oldu,**
sualı bu günə qədər açıq qalan mövzulardandır.  Əslində xəlifə Osmanın kim tərəfindən öldürüldüyü nə Müaviyəyə, nə də ümumiyyətlə o zaman onun qətlinə görə qisas həvəsinə düşənlərə lazım deyildi. Onlar sadəcə İmam Əlinin xəlifəliyinə mane olmaq üçün əvvəldə Müaviyənin gizli fitvası ilə Cəməl döüşünü, daha sonra Müaviyə bir başa özü Süffeyn döyüşünü başlatdı. Sülh müqaviləsindən sonra isə ümumiyytələ bu barədə heç kəs danışmadı, nə xəlifənin qatilini axtaran oldu, nə də qatilindən qisas almaq istəyən. Çünki xəlifə Osmanın əleyhinə üsyan çıxaranlar elə Cəməl və Süffeyn döyüşünü planlayanlar və həyata keçirənlər idi. Misirdən, Yəməndən, Bəsrədən, Kufədən olan bir sıra cahil müsəlmanlar isə onlara havadarlıq edirdi. Cahilin ən böyük problemi daim düşmənin vasitəsinə çevrilməsidir. Düşünməyən, təfəkkürü kənara qoyan, insan heç vaxt hadisələrdən agahlıq tapmır və düşmən torunun ovuna çevrilir. Bu cahillərin bəzisi sonradan xəvaric kimi ortaya atıldılar və elə onda da daim kimlərinsə əlində alətə çevrilib haqqın əleyhinə oldular. Xəvaricin tarixini oxuyanlar bunu aşkar görə bilərlər. Xülasə xəlifə Osmanı qətlə yetirənlər elə əvvəldə onun əleyhinə fitnə salıb, xalqı ayağa qaldıranlar idi. Onlar yaxşı bilirdilər ki, Xəlifənin əleyhinə üsyan çıxarmanın sonu onun qətliylə nəticələnəcək və ondan sonra özləri xilafətə gəlsələrdə, gəlməsələrdə bundan faydalanacaqlar. Xəlifə Osmanın əleyhinə üsyan, onun devrilməsi, qətlə yetirilməsi hər halda Əməvilərə faydalıydı. Xəlifə Osman bir Xəlifə kimi öz Əməvi sülaləsinin başbilənlərini əvvəldə Əbu Süfyanı, sonra Müaviyəni razı sala bilmirdi. Onlar özləridə əvvəldən heç onu xəlifə kimi görmək istəmirdilər. Sadəcə şuradan onun xəlifəlik seçimi qismən Əbu Sufyan və ətrafını razı salmışdı. İstədiklərini ondan ala bilməyəndə,  artıq müdafiə etməkdəndə vaz keçddilər. Hətta “Müaviyə Şam qoşunu ilə Mədinəyə, üsyanı yatırmağa gəlir” kimi yalançı xəbərlər yaydılar. Müaviyə heç yerindən tərpənməmişdi, Şam ordusu isə əgər yola çıxvışdısa da nə qətldən əvvəl nə sonra Mədinəyə gəlib çıxmadı. Qeyd etdiyimiz kimi əslində sadə müsəlmanları xəlifə Osmanın əleyhinə qaldıran da elə

bir mənada Bəni Üməyyənin özüydü. Əbu Süfyan, Müaviyə və digər əməvilərin istəklərini həyata keçirdikcə Xəlifə Osman gün-bəgün nüfuzdan düşür, təsiri zəifləyirdi. Nəhayətdə Əməvilər özlərini bu işdən kənara çəkib, üsyançıları, dəstəkləməklə hətta ayağa qaldırmaqla Osmana da xəyanət etdilər. Müaviyənin və ümumiyyətlə Əməvilərin əvvəldə İmam Əlini bu işdə ittiham etmələri, daha sonra qatillərə tapmaq istəməməkdə təqsirli bilmələri də təsadüfü deildi. Onlar İmam Əlini bu üsyanlarda və xəlifənin qətlində təqsirkar çıxarmağa çalışır, qatillərin müəyyən edilib ortaya çıxarmamaqda günahlandırmaqla xəılifənin qanının qisas haqqını özlərində bilirdilər. Amma İmam Əli əvvəldən xəılifəylə bu şəkildə rəftarın əleyhinə idi. O İslamda xilafətə qarşı üsyanın baş verməsini yolverilməz sayır, xəlifənin qətlini terror adlandırıdı. Ən çətin günlərdə isə öz ailəsi və bütün Bəni Haşimlə Osmanı mühafizə etmək məqsdilə qoruyurdular, Xəlifəyə su qida verməyəndə ona su və ərzaq aparırdılar. Nəhayətdə məhz xəlifə Osman özü Haşimilərin onun mühafizəsində çəkilməsini istədi, çünki, oda əməvilərin ona xəyanət edəcəklərinə inanmır və Şam ordusun köməyinə gələcəyinə inanırdı. İndi İmam Həsənin sülhüylə Müaviyənin daha bir simasının üzə çıxmasını görürürk. Müaviyə sülhdən sonra artıq nə Osmanın qatillərini axtarır, nə də ümumiyyətlə bu məsələni araşdırır, heç yadına belə düşmür. Bəlli olur ki, bunlar hamısı bir oyun və hiylə idi, Müaviyənin digər hoqqaları kimi.

**Tarixdəki faktların təhlili**

maraqlı olduğu qədər də genişdir, ona görə burda bu qədərlə kifayət edirik. Ümid ki, bu yazılar kiəsə faydalı olar. İmam Həsən digər məsumlar kimi məzlumiyyət yaşamış, zamanında dərk olunmamış, cahil möminlərin haqqsız qınağına tuş gəlmişdir. Hətta tarixdə onu İmam Hüseynlə müqayisə də edib, bir tərəfi digərindən üstün tutanlarda olmuşdur. Onların bu cahil hərəkətləri düşmənlərin hiyləli planlarına yaramışdır. Çox təəssüf ki, bunlar həm elmsizliyin və həm də düşüncəsizliyin əlamətləridir. Əhli-beyt - Peyğəmbərdən İmam Zamana qədər bir vahid nurdurlar, onlar öz ilahi missiyalarına nöqsansız əməl ediblər. Bizimsə borcumuz onları haqqıyla tanımaq və tanıtmaqdır. Əhli-beyt məktəbi bizlərə bunu öyrədir. **Vəssəlam!**

**(Bakı - 2025)**